1_Layout 1 27.06.2019 14:24 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 13 (554)

29 iyun
2019-cu il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# 26 iyun Azərbaycan Silahlı Qüvvələri Günüdür

Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 101 ili tamam oldu.

1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi hissə – əlahiddə Azərbaycan korpusu yaradılıb. Həmin il mayın 28-də qəbul edilmiş "İstiqlal bəyannaməsi"ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Hökumət tərəfindən 25 min nəfərlik ordu yaratmaq vəzifəsi irəli sürüldü. Avqustun 1-də Azərbaycanın Hərb Nazirliyi təsis olundu, ilk müdafiə naziri isə Xosrov bəy Sultanov təyin edildi.



Azərbaycanda ilk hərbi parad 1919-cu ildə Bakıda indiki Muzey mərkəzinin yerləşdiyi ərazidə keçirilib. Qısa müddətdə Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından azad edə bilmişdi.

1920-ci ildə Azərbaycan sovet işğalına məruz qaldıqdan sonra hərbi nazirlik ləğv olundu, ordumuzun 15 generalı bolşeviklər tərəfindən güllələndi.

1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Ordusunun yaradılması haqqında qərar qəbul edildi. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli qərarına əsasən, 26 iyun Silahlı Qüvvələr Günü elan olundu. 2011-ci il iyunun 26-da Bakıda Silahlı Qüvvələrin Ali Baş Komandanı Prezident İlham Əliyevin iştirakı ilə Silahlı Qüvvələr Günü və müstəqilliyin bərpasının 20 illiyi münasibətilə müasir Azərbaycan Ordusunun hərbi paradı keçirildi. Növbəti hərbi parad 2013-cü ildə Silahlı Qüvvələrin yaranmasının 95 illiyinə həsr edildi. 2018-ci ildə isə ordumuzun 100 illiyinə həsr olunan parad keçirildi.

Son illər ərzində Azərbaycan hərbi potensialını xeyli artırıb. Ölkəmizə ən müasir silah-sursat, texnika, avadanlıq gətirilib. Hazırda maddi-texniki təchizat və döyüş qabiliyyəti baxımından Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazın ən güclü ordusudur.

Azərbaycan Ordusu bu gücünü 2016-cı ilin aprel ayında bir daha sübut etdi.

1994-cü il mayın 12-də cəbhədə rəsmən atəşkəs elan olunmasına baxmayaraq, ermənilər hələ də atəşkəs rejimini pozmaqda davam edirlər. Lakin Azərbaycan Ordusunun qəhrəman əsgərləri ön xətdə düşmənə layiqli cavab verir, işğalçı ordunun təxribatlarının qarşısını qətiyyətlə alırlar. 2016-cı ilin aprelində Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenidən düşmənə öz gücünü göstərdi.

2016-cı il aprelin 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin, minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu dördgünlük aprel döyüşləri ilə xalqımıza yenidən qələbə sevinci yaşatdı.

Ali Baş Komandanın daimi nəzarəti, diqqət və qayğısı, eyni zamanda, Müdafiə Nazirliyi rəhbərliyinin düzgün qurduğu fəaliyyət nəticəsində ordumuzun üzüağ çıxdığı bu əməliyyatın ən böyük nəticələrindən biri odur ki, Azərbaycan Ordusu mənəvi-psixoloji, döyüş ruhu, sosial, ictimai, texniki təchizat, silah-sursat, peşəkarlıq baxımdan Ermənistan ordusunu nə qədər qabaqladığını ortaya qoydu və düşmən də bu üstünlüyü tam anladı. Erməni ictimaiyyəti bu prosesdə geriləndiyini, uduzduğunu öz üzərində açıq-aydın hiss etdi. Atəşkəs elan edildikdən keçən dövr ərzində ermənilər ilk dəfə törətdikləri təxribata görə cavablarını aldılar və bu, düşmən üçün gözlənilməz olduğu qədər də layiqli cavab oldu.



Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikası ərazisində keçirdiyi əməliyyat da Silahlı Qüvvələrimizin uğurları sırasındadır.

Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda hərbi sənaye kompleksi də yaradılıb. Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur.

**Azərbaycan Ordusu beynəlxalq terrorizmə qarşı mübarizədə fəallıq göstərir. Ölkənin Sülhməramlı Qüvvələri Əfqanıstandakı koalisiya əməliyyatlarında iştirak edir. Bir sözlə, 101 illik tarixi olan Azərbaycan Ordusu tezliklə işğal altındakı torpaqlarımızı azad edəcək. Ordumuz buna qadirdir.**

**AZƏRTAC**

# DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİNDƏ NÖVBƏTİ BURAXILIŞ

**İyunun 21-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin məzunlarının ikinci buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.**

Əvvəlcə Ali Hərbi Məktəbin döyüş bayrağı sıra meydanına gətirilib. Sonra Milli Lider Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçmiş hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.



Nazir müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov təntənəli mərasimdə çıxış edərək Ali Hərbi Məktəbin ikinci buraxılışının qoşunların həyatında ən əlamətdar günlərdən biri olduğunu bildirib.

O deyib ki, milli hərbi kadrların hazırlanması istiqamətində təməli Milli Lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev uğurla davam etdirməkdədir. Məhz Daxili Qoşunların kadr potensialının daha da gücləndirilməsi məqsədilə dövlət başçısının 25 fevral 2011-ci il tarixli Sərəncamı ilə Orta İxtisas Hərbi Məktəbinin bazasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbi yaradılıb.

Qeyd olunub ki, ölkəmizdə aparılan quruculuq işləri və islahatlar Daxili Qoşunların hərbi hissələri ilə bərabər Ali Hərbi Məktəbin də inkişafına təkan verib, müasir tələblərə cavab verən kadr potensialı formalaşıb, zəruri maddi-texniki tədris bazası yaradılıb. Fəaliyyətin müasir standartlara uyğun təşkili məqsədilə hal-hazırda Ali Hərbi Məktəbdə kompüterləşdirilərək,zəruri texniki və əyani vasitələrlə tam təchiz olunmuş auditoriyalar, siniflər, fənn kabinetləri, təlim şəhərcikləri yaradılıb. Gələcəyin zabitlərinin intellektual səviyyəsinin yüksəldilməsində böyük əhəmiyyət kəsb edən kitabxana, xüsusi guşələr və xarici dil mərkəzi fəaliyyət göstərir.

Ali Hərbi Məktəbin yaradılmasında və sonrakı fəaliyyətində Türkiyə Respublikası DİN Jandarm Baş Komandanlığının zabit heyətinin böyük əməyi olub. Həzırda qardaş ölkənin təcrübəli zabitlərindən ibarət heyət yüksək ixtisaslı zabit kadrların hazırlanmasında fəal iştirak edir və əminliklə demək olar ki, bu təhsil müəssisəsi inkişaf etmiş dövlətlərin analoji təhsil ocaqları ilə rəqabət aparacaq səviyyədədir.



Daxili Qoşunlar üçün yüksək ixtisaslı kadrların hazırlanmasında danılmaz roluna, təmənnasız yardımlarına görə Jandarm Qüvvələri Baş Komandanlığına, hərbi mütəxəssislərinə, o cümlədən təntənəli mərasimdə iştirak edən Jandarm və Sahil Təhlükəsizlik Akademiyasının rəisi, general-leytenant Hüseyin Kurtoğluna təşəkkürünü bildirən nazir müavini Ş.Məmmədov əməkdaşlığın bundan sonra da yüksək səviyyədə davam və inkişaf etdiriləcəyini bildirib.

Məzunların həyatında yeni bir dövrün başlandığını nəzərə çatdıran general-leytenant Ş.Məmmədov onları əlamətdar hadisə münasibətilə təbrik edib, bu təhsil ocağında komandir peşəsinə yiyələnməklə gənc zabitlərin liderlik, cəsurluq, fədakarlıq, dürüstlük kimi keyfiyyətlər qazandıqlarını, peşələrini sevən, müasir düşüncəyə sahib zabitlər kimi formalaşdıqlarını xatırladaraq, onların artıq hazırlıqlı və peşəkar hərbçilər kimi Daxili Qoşunların sıralarında xidmətlərini uğurla davam etdirəcəklərinə, qoşunların döyüş ənənələrinə sadiq qalacaqlarına əminliyini bildirib.

Daha sonra Ali Hərbi Məktəbi əla qiymətlərlə bitirmiş iki məzuna – Rafiq Mikayılova və Vaqif İbadova fərqlənmə diplomları və "leytenant" hərbi rütbələrinin paqonları təqdim edilib.

Gənc zabit R.Mikayılov "Yaş kötüyü"nə rəmzi xatirə lövhəsini vurub.

Döyüş bayrağı üçüncü kursun kursantlarına təhvil verilib. Ali Hərbi Məktəbin marşı ifa edilib.

Sonda şəxsi heyət təntənəli marşla tribunanın qarşısından keçib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 27.06.2019 14:32 Page 1



## DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ-DAXİLİ QOŞUNLARIN KOMANDANI GENERAL-LEYTENANT HÜSEYİN KURTOĞLUNU QƏBUL ETMİŞDİR



***İyunun 20-də Daxili Qoşunların Ali Hərbi Məktəbində Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov məktəbin növbəti buraxılışı ilə əlaqədar keçiriləcək mərasimdə iştirak etmək üçün onun dəvəti ilə ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Jandarm və Sahil Təhlükəsizlik Akademiyasının rəisi general-leytenant Hüseyin Kurtoğlunu qəbul edib.***

Qonağı Türkiyə Respublikasının Azərbaycan Respublikasında Daxili İşlər Müşaviri general-mayor Ali Demir və Daxili Qoşunların Komandanının müşaviri polkovnik Mustafa Çekiç müşayiət ediblər.

1997-ci il oktyabrın 31-də imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlar Baş İdarəsinin şəxsi heyətinə Türkiyə Jandarm İdarəsi tərəfindən ediləcək təlim-təhsil və təchizat yardımına aid Protokol”dan danışan general-leytenant Ş.Məmmədov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Türkiyə Jandarm Baş Komandanlığı arasındakı sıx münasibətlərin günü-gündən dərinləşdiyini vurğulayıb. Əlavə olaraq bildirib ki, iki ölkə arasındakı dostluq və əməkdaşlıq münasibətləri qurumların hərbi əməkdaşlıq əlaqələrinin genişlənməsinə töhfələr verib. O, qardaş Türkiyə Respublikasının Jandarm Baş Komandanlığının zabitlərinin Daxili Qoşunlarda təlim-tədris sahəsindəki fəaliyyətini yüksək qiymətləndirib.

General-leytenant H.Kurtoğlu da, öz növbəsində, səmimi və qonaqpərvər qəbul üçün təşəkkürünü bildirib, iki qurum arasında qarşılıqlı əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsində maraqlı olduqlarını diqqətə çatdırıb. O, vaxtilə Daxili Qoşunlarda xidməti ezamiyyətdə olarkən hərbi hissə komandirinin müşaviri vəzifəsində çalışdığını xatırladaraq, həmin dövrlə müqayisədə hazırda böyük dəyişiklikləri görməsindən məmnunluğunu ifadə edib. Qonaq Daxili Qoşunların Ali Hərbi Məktəbinin müasir hərbi təhsil müəssisəsi kimi formalaşmasının və uğurlu fəaliyyətinin təqdirəlayiq olduğunu vurğulayıb.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbi ilə Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Jandarm və Sahil Təhlükəsizlik Akademiyası arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri müzakirə olunub.

Görüşün sonunda xatirə şəkli çəkdirilib.

**Mətbuat xidməti**

## “HƏRBİ VƏTƏNPƏRVƏRLİYİN GÜCLƏNDİRİLMƏSİNDƏ DİNİ İCMALARIN YERİ VƏ ROLU” MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

***İyunun 20-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə “Hərbi vətənpərvərliyin gücləndirilməsində dini icmaların yeri və rolu” mövzusunda konfrans keçirilib.***



Konfransda bir sıra güc strukturlarının nümayəndələri ilə yanaşı, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının da hərbi qulluqçuları, həmçinin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsinin rəhbər şəxsləri, eləcə də ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri iştirak ediblər.

Tədbirdə Daxili Qoşunların Baş İdarəsinin Mənəvi-psixoloji hazırlıq şöbəsində baş zabit mayor Anar Qurbanovun rəhbərliyi ilə 99713, 67987, 25031, 16076 saylı hərbi hissələrdən, ümumilikdə, 5 nəfər hərbi qulluqçu iştirak edib.

Mayor A.Qurbanov tədbirin əhəmiyyəti barədə danışarkən bildirdi ki, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən respublikamızda dini fanatizm, radikalizm və ekstremizmə qarşı ideoloji müstəvidə effektiv mübarizənin aparılması, xalqımızın milli maraqlarına zidd olan dini ideologiyanın ölkəmizdə yayılmasının qarşısının alınması, eləcə də müxtəlif dinlərə, məzhəblərə etiqad edən ölkə vətəndaşlarının qarşılıqlı hörmət, mehribanlıq və əməkdaşlıq şəraitində birgəyaşayış ənənələrinin daha da möhkəmləndirilməsi məqsədilə müxtəlif formatlarda silsilə maarifləndirici tədbirlər həyata keçirilir.

Tədbirdə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə həsr olunmuş “Şəhadət” sənədli filmindən fraqmentlər nümayiş etdirilib, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qeyd olunub ki, torpaqlarının 20 faizi düşmən tapdağında olan, on minlərlə şəhid vermiş Azərbaycan cəmiyyətində vətənpərvərlik hissinin gücləndirilməsi ən aktual məsələlərdən biridir: “Bu baxımdan gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi, ümumbəşəri və multikultural dəyərlərə hörmət hissinin aşılanması hər zaman prioritet məsələdir. Vətənpərvərliyin gücləndirilməsində milli-mənəvi dəyərlərin özünəməxsus rolu var. Vətən təəssübünün, vətəndaşlıq və dövlətçilik mövqeyinin üstün tutulması baxımından ziyalılarımızla, təhsil müəssisələrimizlə yanaşı, dini icmaların da üzərinə böyük məsuliyyət düşür”.

Mayor A.Qurbanov onu da diqqətə çatdırdı ki, tədbir zamanı hüquq-mühafizə və təhlükəsizlik orqanlarının yorulmaz fəaliyyəti nəticəsində Azərbaycanda sabitlik və əmin-amanlığın yüksək səviyyədə təmin olunması da vurğulanıb. Müharibə şəraitində olan ölkə üçün milli təhlükəsizlik və dini-ideoloji sabitlik mühüm amildir və DQİDK bu istiqamətdə müvafiq dövlət orqanları ilə sıx əməkdaşlıq edir, ölkədəki bütün hərbi hissələrdə maarifləndirici tədbirlər keçirir.

Bununla yanaşı, tədbirdə dövlət tərəfindən həyata keçirilən islahatlar, həmçinin, qəbul edilən dövlət proqramları, imzalanan fərman və sərəncamlarin gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm əhəmiyyətə malik olması qeyd edilib.

Çıxış edən digər natiqlər də təmsil etdikləri qurumların hərbi vətənpərvərliyin gücləndirilməsi sahəsində gördüyü işlərdən danışıblar. Onlar deyiblər ki, müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız öz Vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər. Qeyd olunub ki, gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin daha da gücləndirilməsi sahəsində məqsədəuyğun və sistemli iş aparılmaqdadır.

Tədbirin sonunda Qafqaz Müsəlmanları İdarəsinin, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndələri, həmçinin, Bakı şəhəri “Azərbaycan Bibliya Cəmiyyəti” xristian dini icmasının sədri milli-mənəvi və dini dəyərlərimizin təbliğ və təşviq edilməsində, dini radikalizmə qarşı mübarizədə, o cümlədən, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan hərbi vətənpərvərliyin gücləndirilməsində dini icmaların üzərinə düşən vəzifələr barədə fikirlərini bölüşüblər.

**baş leytenant Xədicə Hacızadə**

## 27-ci İLDÖNÜMÜNÜ QEYD EDƏN HƏRBİ HİSSƏMİZ İNKİŞAF VƏ TƏRƏQQİ YOLUNDA...



Respublikamızın ərazi bütövlüyü uğrunda qızğın döyüşlərin getdiyi bir vaxtda yaradılan Daxili Qoşunların 25032 saylı hərbi hissəsi hazırda tədris təyinatlı hərbi hissədir. Bu hərbi hissənin yerləşdiyi hərbi şəhərcik 1992-ci il mayın 31-də Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının istifadəsinə verilib. Bundan sonra 1992-ci ilin iyun ayının 12-dən etibarən hərbi hissə fəaliyyətə başlayıb. 1992-1994-cü illərdə hərbi hissənin şəxsi heyəti ərazi bütövlüyümüz uğrunda döyüşlərdə iştirak edib. 1999-cu ildə hərbi hissəyə tədris təyinatlı vəzifələr həvalə olunub.

Artıq 27 ildir ki, fəaliyyət göstərən hərbi hissə Daxili İşlər Naziri və Daxili İşlər Nazirinin müavini – Daxili Qoşunların Komandanının diqqət və qayğısı sayəsində xeyli irəliləyib, maddi-texniki təchizatı yaxşılaşıb.

Bu günlərdə sözügedən hərbi hissədə xidməti ezamiyyətdə olduğum zaman bunun bir daha şahidi oldum. Onu da qeyd edim ki, bizim gəlişimiz məhz bu hərbi hissənin yaranma günü ərəfəsinə təsadüf etdi. 27 illik zəngin xidmət təcrübəsinə malik olan bu hərbi hissənin tarixinə, bugünkü həyatına nəzər salmaq bizim üçün də həqiqi mənada maraqlı oldu.

Hərbi hissədə tərbiyə işləri üzrə bölmənin rəisi-baş təlimatçı kapitan Zamin Abbasovla söhbət zamanı məlum oldu ki, tədris təyinatlı hərbi hissədə kiçik komandirlər, sürücü və kiçik mütəxəssislər (rabitəçi və aşpazlar) hazırlanır və müxtəlif hərbi hissələrə göndərilirlər.

Kiçik komandirlərin hazırlanması kursu müvafiq təhsil proqramının tələblərinə uyğun olaraq beş tədris həftəsi ərzində aparılır. Tədris proqramı bitdikdən sonra kursantlar təcrübə keçmək üçün Daxili Qoşunların 25031 saylı hərbi hissəsinə ezam olunurlar. Təcrübə müddətində onlar manqa komandiri kimi fəaliyyət göstərirlər. Təyin olunmuş müddət bitdikdən sonra bütün kursantlar hərbi hissəyə qayıdırlar və Daxili Qoşunların Baş İdarəsi tərəfindən təyin olunmuş imtahan komissiyası təcrübəçilərin əldə etdikləri bilikləri hansı dərəcədə mənimsədiklərini yoxlamaq məqsədilə imtahanlar qəbul edir. Təbii ki, sınaqları “əla” və “yaxşı” qiymətlərlə başa vuran kursantlar aidiyyəti üzrə Daxili Qoşunlar Komandanının müvafiq əmrinə əsasən ilkin “kiçik çavuş” hərbi rütbəsi verilməklə vəzifələrə təyin olunurlar.

### Sürücü və kiçik mütəxəssislər hazırlayan tədris bölüyü

25032 saylı hərbi hissədə xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirən bölmələrdən biri də sürücü və kiçik mütəxəssislər hazırlayan tədris bölüyüdür. Bölüyün qarşısında duran əsas tapşırıq qoşunların hərbi hissələrinə rabitəçi, aşpaz və sürücü mütəxəssislər hazırlamaqdır.

Bölük komandiri kapitan Habil Əzimov mütəmadi olaraq hər bir taqımın təyinatına uyğun məşğələlərə cəlb olunduğunu bildirdi. Qeyd olundu ki, tədris zamanı rabitəçi mütəxəssisləri hazırlayan taqımın şəxsi heyətinə qoşunların təchizatında olan rabitə və yüksək texnoloji vasitələrin, ultraqısa dalğalı, eyni zamanda, qısa dalğalı radiostansiyaların taktiki-texniki xüsusiyyətləri izah edilir, işə salınması, istismarı, eləcə də radiomübadilənin aparılması qaydaları öyrədilir. Aşpazlara yeməklərin bişirilməsi, səhra şəraitində hazırlanması, o cümlədən, gigiyena qaydalarına ciddi riayət olunması üsulları aşılanır.



Rabitəçi mütəxəssislərin hazırlanması Daxili Qoşunlar Komandanının müvafiq əmrinin tələblərinə əsasən təşkil edilir. Şəxsi heyətin ixtisas hazırlığı üzrə əsas təlim forması aparatlarda, fəaliyyətdə olan rabitə kanallarında praktiki məşğələlərdir. Nəzəri bilik ştat texnikasının iş prinsipinin dərk olunması həcmində verilir. Məşğələlər keçirilən zaman stansiyalardan, sabit rabitə qovşaqlarından və orada olan texnikadan və başqa maddi-təlim bazalarından istifadə olunur. Rabitə vasitələrində işləmək üçün təlim ilk dəfə sinifdə və fəaliyyətdə olan aparatlarda, sonralar isə səhra rabitə qovşaqlarında keçirilir.





Hər bir məşğələnin sonunda öyrədilən materialın mənimsənilməsi araşdırılır və qiymətləndirilir.

Sürücü hazırlayan taqımın hərbi qulluqçularına bilik və bacarıqlarının planauyğun, mərhələli şəkildə mənimsənilməsi, avtomobil, həmçinin, digər texnikanın hər cür hava və ərazi şəraitində yol hərəkəti qaydalarına uyğun idarə edilməsi tədris olunur. Kapitan H.Əzimov ildə dörd tədris dönəminin olduğunu bildirərək, Daxili Qoşunlarda “B” və “C” kateqoriyalı sürücülərin hazırlanması üzrə tədris proqramının əhəmiyyətindən danışdı. Söylədi ki, sürücülərin hazırlanması üzrə təlimin təşkili və keçirilməsi zamanı hərbi qulluqçuların qarşısında bir neçə mühüm vəzifə dayanır. Bunlar avtomobilin çətin şəraitlərdə idarə edilməsi, avtomobil karvanının tərkibində hərəkət zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, hərəkət sürətinin, eləcə də nəqliyyat vasitələri arasında ara məsafəsinin düzgün seçilməsi, verilən komandaların (siqnalların) tez və dəqiq yerinə yetirilməsidir. Müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı texnikanın bacarıqla idarə olunması da sadalananlara daxildir. Praktiki təlimlərdə Avtomobil xidmətinin rəisi mayor Elman Əhmədovun rəhbərliyi ilə avtomobillərin idarə olunması vərdişləri təkmilləşdirilir. Tədris dövrünü, eləcə də imtahanları müsbət qiymətlə başa vuran və sürücülük vəsiqəsi alan hərbi qulluqçular qoşunların hərbi hissələrinə sürücü vəzifələrinə təyin edilirlər.

**(davamı 3-cü səhifədə)**

3_Layout 1 27.06.2019 14:46 Page 1



# 27-ci İLDÖNÜMÜNÜ QEYD EDƏN HƏRBİ HİSSƏMİZ İNKİŞAF VƏ TƏRƏQQİ YOLUNDA...



(əvvəli 2-ci səhifədə)

### KOMENDANT BÖLÜYÜ QARŞIYA QOYULAN TAPŞIRIQLARIN ÖHDƏSİNDƏN LAYİQİNCƏ GƏLİR

Hərbi hissənin döyüş xidməti dedikdə, ilk növbədə döyüş bayrağının, anbarların, hərbi şəhərciyin və hərbi hissənin mühafizə və müdafiəsi ağlımıza gəlir. Bu baxımdan 25032 saylı hərbi hissənin komendant bölüyü hissənin etibarlı şəkildə qorunmasını həyata keçirir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölüyün şəxsi heyəti daim ayıq-sayıqlığı və əzmkarlığı ilə fərqlənir.





Bölük komandirinin müavini baş leytenant Orxan Süleymanovla söhbət zamanı o, qarşıya qoyulan mühüm tapşırıqların əhəmiyyətini, döyüş xidmətinə cəlb olunan hərbi qulluqçuların digərlərindən fərqləndiyini diqqətə çatdırdı. Bildirdi ki, məsuliyyətli, eyni zamanda mühüm vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, mənəvi-psixoloji durumunun qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Bu gün xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin olduğunu deyən baş leytenant O.Süleymanov hərbi qulluqçularla keçirilən məşğələlərin əhəmiyyətini önə çəkdi. Keçirilən nəzəri məşğələlərin şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına, hərbi savadlarının genişlənməsinə təkan verdiyini dedi. O, yüksək fiziki göstəriciyə, zəruri hərbi savada malik, eləcə də müsbət mənəvi cəhətləri olan əsgərin əzmkar döyüşçü olduğunu vurğuladı.

Qeyd edək ki, baş leytenant O.Süleymanov 1990-cı il dekabrın 10-da Qax rayonunun Qasmalı kəndində dünyaya göz açıb. 2008-ci ildə Qasmalı kəndinin Elçin Şahmərdanov adına tam orta məktəbini bitirib. 2009-2010-cu illərdə Ədliyyə Nazirliyində müddətli həqiqi hərbi xidmət keçib. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarına gəlişi 2011-ci ilə təsadüf edir. Belə ki, hələ yeniyetmə vaxtlarından hərbçi peşəsinə olan dərin rəğbəti onu öz gələcəyini hərbi qulluqçu kimi yaşamağa həvəsləndirirdi. Elə bu istəklə də Orxan 2011-ci ildə Daxili Qoşunların 99713 saylı hərbi hissəsinə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi hərbi xidmətə qəbul olunur. Nümunəviliyi, intizamı ilə digərlərindən fərqlənən hərbi qulluqçu hərbi savadını artırmaq üçün 2012-ci ilin avqust ayının 22-də Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinə (hazırda Ali Hərbi Məktəb – N.A.) qəbul olunur. "Leytenant" hərbi rütbəsini alaraq 12318 saylı hərbi hissənin təminat bölüyündə təminat taqımının komandiri vəzifəsinə təyin edilir. 2017-ci ilə kimi müxtəlif vəzifələrdə ləyaqətlə xidmət edən baş leytenant O.Süleymanovun 25032 saylı hərbi hissəyə gəlişi bu ilə təsadüf edib. Hazırda 25032 saylı hərbi hissənin komendant bölüyü komandirinin müavini vəzifəsindədir. Üzərinə düşən vəzifələrin icrası zamanı sayıqlıq, peşəkarlıq nümayiş etdirir. O, bölüyün döyüş hazırlığına, məşğələlərinin təşkilinə və aparılmasına, maddi-tədris bazası obyektlərinin, tədris cihazlarının və avadanlıqlarının saz saxlanılmasına, kütləvi idman işlərinə, daxili qayda-qanuna və hərbi intizama riayət edilməsinə cavabdehlik daşıyır. Hərbi hissə komandiri tərəfindən verilən tapşırıqların icrasına son dərəcə ciddi və məsuliyyətlə yanaşır. Komendant bölüyündə xidmətin çətin, lakin şərəfli olduğunu və döyüş xidmətinə seçilən hərbi qulluqçuların hər birinin olduqca diqqətli və əzmkar olmalarını xüsusilə bildirdi. Zabit şərəfini hər şeydən üstün tutan komandir müavini hər bir zabitin özlüyündə tabeliyində olan hərbi qulluqçulara örnək ola bilməsinin vacibliyini, tələbkarlıq və qayğının paralel olaraq aparılmasının da önəmli olduğunu sözlərinə əlavə etdi: "Deyə bilərəm ki, bu gün bizə həvalə olunan tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün əlimizdən gələni edirik və obyektlərin mühafizə və müdafiəsi əzmkar əsgərlər tərəfindən etibarlı şəkildə təmin olunur".

### ƏSGƏR YEMƏKXANASINDA BİŞİRİLƏN XÖRƏKLƏRİN KEYFİYYƏTİ TƏLƏBLƏRƏ TAM CAVAB VERİR

Yüksək döyüş hazırlığını qoruyub saxlayan 25032 saylı hərbi hissənin komandanlığının diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli və kalorili qidalanmasıdır. Hərbi hissə komandanlığının daima nəzarətində olan əsgər yeməkxanasında bişirilən xörəklərin keyfiyyəti müvafiq tələblərə tam cavab verir. Orada olarkən yeməkxanadakı səliqə-sahman və gigiyenik qaydaların gözlənilməsi diqqətimi çəkdi. Hərbi qulluqçuların belə təmiz şəraitdə qidalanmaları sözsüz ki, onlara göstərilən diqqət və qayğının təzahürüdür.





Hərbi hissənin ərzaq xidmətinin rəisi mayor Ceyhun Xəlilov da şəxsi heyətin qida rasionundan danışarkən bildirdi ki, əsasən milli mətbəximizin ləziz xörəklərinə üstünlük verilir. O, şəxsi heyətin qidalanmasının Daxili İşlər Nazirinin müvafiq əmrinin tələbləri əsasında aparıldığını söylədi. Həftə ərzində hərbi qulluqçulara I xörək yarmalı şorba, lobya şorbası, kələm borşu, düyü şorbası, noxud şorbası, II xörək olaraq isə qarabaşaq, makaron, plov və kartof əzməsi mal əti ilə, eləcə də kartof əzməsi mal əti konservası və balıq qızartması ilə verilir. Bununla yanaşı, gündəlik olaraq vitamin, mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir.

Onun sözlərinə görə, qidaların keyfiyyətli hazırlanması Daxili Qoşunlar Komandanlığının qarşıya qoyduğu vacib tələblərdəndir. Bu məqsədlə, yeməklərin hazırlanmasında kurs keçmiş əsgər aşpazlarla bərabər işçi qadınların əməyindən də istifadə olunur. Ərzaq xidmətinin rəisi onların öz vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlandığını nəzərə çatdırdı.

**baş leytenant Nigar Ağayeva**

---

*Şəhidlərimiz*

# DÖYÜŞ MÖVQEYİNDƏN SON NƏFƏSİNƏDƏK GERİ ÇƏKİLMƏDİ...

**Elin belə günündə**
**Dayan düşmən önündə.**
**Ol Vətənin siperi,**
**Azərbaycan əsgəri!**

Daxili Qoşunların veteranı, döyüşçü-şair Elxan Xəzərin Azərbaycan əsgərinə həsr etdiyi və qanlı-qadalı 1992-ci ildə yazdığı şeirin bu döyüş ruhlu misralarını oxuduqca, respublikamızın ərazi bütövlüyünün bərpası uğrunda erməni işğalçılarına qarşı son nəfəsinədək vuruşmuş qeyrətli oğullarımızı xatırlayıram. Onlar həqiqətən də elin ağır günündə Vətənin siperi oldular, bir qarış torpağımızı belə, düşmənə verməmək üçün ölümdən qorxmadan müharibənin odalovuna atıldılar. Elə oğulları itirmişik ki, onlar haqqında filmlər çəkilməli, kitablar yazılmalı, muzeylərimizdə xatirələri əbədiləşdirilməlidir. Bu işlər atəşkəs gerçəkliyini yaşayan cəmiyyətimizin daim diqqət mərkəzində olmalıdır. Danılmaz bir həqiqətdir ki, şəhidlərini unutmayan xalqın döyüş ruhu da sarsılmaz olur.



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının şəhid hərbi qulluqçularından biri olan əsgər Baxşalıyev Habil Qiyas oğlu (ayrı-ayrı sənədlərdə və nəşrlərdə şəhidin soyadı Baxşəliyev yazılıb - Y.A.) şərəfli döyüş yolu keçib.

H.Baxşalıyevin 1973-cü il dekabrın 23-də Yevlax rayonunun Qaraməmmədli kəndində anadan olması barədə doğum haqqında şəhadətnamədə qeyd edilib. Ancaq Habil əslən rayonun Rüstəmli kəndindəndir. Belə ki, Rüstəmli onun ata yurdudur. Sovet dövründə bir neçə qonşu kəndi birləşdirən sovetliyin yerləşməsi nəzərə alınmaqla sənədləşmə aparılıb. Qiyas Baxşalıyev və Kübra Baxşalıyevanın qurduğu ailədə 5 övlad dünyaya gəlib. Zəhmətkeş bir ailədə böyüyərək boya-başa çatan Habil valideynlərinə ehtiramı, bacılarına və qardaşına mehriban münasibəti, sadəliyi, xeyirxahlığı, hər kəsə bacardığı köməyi əsirgəməməyi ilə fərqlənib. Habil Yevlax rayonunun Rüstəmli kəndindəki orta məktəbdə təhsil alıb. Sonra Mingəçevir şəhərində yerləşən sürücülük məktəbində oxuyub, ona müvafiq kateqoriyali sürücülük vəsiqəsi verilib. Atasının vaxtilə sürücü işləməsi onun da bu peşəyə marağını artırıb. Hərbi xidmətə çağırılanadək bir müddət sürücü işləyib.

Ailəsinin redaksiyaya göndərdiyi tərcümeyi-halda qeyd olunub ki, H.Baxşalıyev hərbi xidmətə 1991-ci ildə çağırılıb. Həmçinin, şəhid barədə Daxili Qoşunların 25032 saylı hərbi hissəsində tərtib olunmuş xidməti xasiyyətnamədə H.Baxşalıyevin 1991-ci ilin dekabrında hərbi qulluğa başladığı göstərilib. Beləliklə, o, Yevlax Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yevlax Rayon Şöbəsi - Y.A.) tərəfindən müddətli həqiqi hərbi xidmətə göndərilib. Habil Daxili Qoşunların sıralarına qəbul olunub.

Həmin vaxt müstəqil respublikamızın Daxili Qoşunlarının formalaşması həyata keçirilirdi. Milli ordu quruculuğuna da başlanılmışdı. Vətənimizdə elan olunmamış müharibə gedirdi. Respublikamızın ərazi bütövlüyünün müdafiəsində Daxili Qoşunların şəxsi heyəti də iştirak edirdi.

Daxili Qoşunların Arxivindən verilən 21.02.2019-cu il tarixli müvafiq arayışdan məlum olur ki, əsgər H.Baxşalıyev qoşunların 67987 və 25032 saylı hərbi hissələrinin tərkibində hərbi xidmət keçib. Nəzərdən keçirdiyim xidməti sənədlərə istinadən qeyd edim ki, Habil əsgər olaraq hərbi xidmət borcunu vicdanla yerinə yetirib. Komandirləri tərəfindən müsbət xarakterizə olunub.

Ailəsindən verilən məlumata görə, Habil öncə Ağdam-Ağdərə cəbhə bölgəsində döyüşlərdə iştirak edib. Düşmən gülləsi və mərmisindən həlak olan döyüşçü yoldaşlarının ölümü onu da dərindən sarsıdıb. Müharibənin bütün dəhşətlərini görüb. Ancaq iradəsini toparlayaraq döyüşçü qətiyyəti göstərib, cəsarətlə vuruşub.

Daha sonra əsgər H.Baxşalıyev 25032 saylı hərbi hissənin şəxsi heyətinin tərkibində Füzuli rayonuna göndərilməzdən əvvəl motoatıcı bölükdə baş atıcı-pulemyotçu vəzifəsinə təyin edilib. 1993-cü ilin noyabr ayının əvvəllərindən etibarən Füzuli rayonu ərazisində torpaqlarımızın müdafiəsində dayanıb. Həmin dövrdə Daxili Qoşunların 67987, 99713 və 25032 saylı hərbi hissələrinin şəxsi heyəti ön cəbhənin bu istiqamətində cəmləşdirilmişdi. Qarşıya qoyulan əsas döyüş tapşırıqları düşmənin Füzuli rayonundakı təmas xəttini yarmasına, Beyləqan istiqamətində irəliləməsinə yol verməmək və ona əks zərbə vurmaqla bu zonada torpaqlarımızı işğaldan azad etmək idi. Qeyd olunan hərbi hissələrimizin şəxsi heyəti bu döyüş tapşırıqlarını cəsurluqla yerinə yetirib. 1993-cü ilin noyabr-dekabr aylarında və 1994-cü ilin yanvarında ön cəbhənin bu istiqamətində müdafiə və hücum xarakterli döyüşlər zamanı düşmən ağır itkilərlə üzləşib.



1993-cü il dekabrın 22-də, ad gününə bir gün qalmış, Füzuli rayonu ərazisindəki təmas xəttində Habilin son döyüşü oldu. O, Vətən torpağını mərdliklə müdafiə edərkən düşmən gülləsi onun həyatına son qoydu.

17.03.1994-cü il tarixli, II-JQ 448693 nömrəli ölüm haqqında şəhadətnamədə və Daxili Qoşunların Arxivinin 21.02.2019-cu il tarixli müvafiq arayışında da əsgər H.Baxşalıyevin 22.12.1993-cü il tarixdə döyüşdə həlak olduğu göstərilib.

25032 saylı hərbi hissə komandirinin imzası ilə Baxşalıyevlər ailəsinə göndərilən 09.04.1994-cü il tarixli məktubda qeyd olunub: "H.Baxşalıyev iştirak etdiyi döyüşlərin hamısında şəxsi nümunə göstərmiş, çətin vəziyyətlərdə öz yoldaşlarının köməyinə çatmış, döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirmişdir".

Şəhid döyüşçü 23.12.1993-cü il tarixdə, ad günündə Yevlax şəhərindəki Şəhidlər Xiyabanında dəfn olunub.

Şəhidin ailəsi Yevlax rayonunun Rüstəmli kəndində yaşayır. Ailəyə dövlət tərəfindən müvafiq müavinət verilir. Habilin orta məktəbdə oxuyan qardaşı oğlu onun adını daşıyır.

1996-cı ildə Azərbaycan Dövlət Nəşriyyatında çap olunmuş, Rafiq Şamiloğlu və Arzu İmanovanın müəllifi olduqları "Yevlaxın şəhid oğulları" kitabında şəhid hərbi qulluqçumuz barədə məlumat verilib.

Bu gün 12318 saylı hərbi hissənin yerləşdiyi hərbi şəhərcikdə (25032 saylı hərbi hissənin əvvəlki dislokasiya yeri burada idi - Y.A.) şəhid hərbi qulluqçuların xatirəsinə memorial abidə kompleksi yaradılıb. Abidəyə əsgər H.Baxşalıyevin də adı həkk olunub.

**Daxili Qoşunların şəxsi heyəti və veteranları şəhidlərin xatirəsini daim ehtiramla yad edirlər. Əsgər H.Baxşalıyev kimi şəhid oğulların xatirəsi heç vaxt unudulmayacaq.**

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 27.06.2019 15:03 Page 1



*Metodiki vəsait*

# NƏQLİYYAT VASİTƏLƏRİNİN HƏRƏKƏT SÜRƏTİ VƏ ARA MƏSAFƏSİ YOL HƏRƏKƏTİ TƏHLÜKƏSİZLİYİNİN VACİB AMİLİDİR

***Yol-nəqliyyat hadisələri cəmiyyətimizi narahat edən ciddi sosial probleme çevrilib. Hər gün yollarda onlarla insan həlak olur və ya müxtəlif dərəcəli travmalara məruz qalır. Bunun la həm də nəqliyyat vasitələrinə ziyan vurulur. Yol hərəkətinin təhlükəsizliyinin təmin olunmasında bu mövzuda maarifləndirmə işinin də böyük əhəmiyyəti var.***

***Sizə təqdim etdiyimiz bu materialda yol hərəkətinin bir sıra aktual məqamlarına aydınlıq gətirilir.***

**Daxili Qoşunlarda baş vermiş yol-nəqliyyat hadisələrinin böyük bir hissəsi "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 50-ci maddəsinin pozulması nəticəsində, yəni nəqliyyat vasitələri arasındakı ara məsafəsinin düzgün seçilməməsi nəticəsində baş vermişdir.**

### Hərəkət sürəti və nəqliyyat vasitələri arasında ara məsafəsi

I. Sürücü hərəkətin intensivliyini, nəqliyyat vasitəsinin, yükün xüsusiyyətlərini və vəziyyətini, yol və meteoroloji şəraiti, xüsusən hərəkət istiqamətində görmə şəraitini nəzərə almaqla, nəqliyyat vasitəsini müəyyən olunmuş sürət məhdudiyyətindən çox olmayan sürətlə sürməlidir. Sürücü hərəkət üçün təhlükə yarandığını gördükdə, nəqliyyat vasitəsinin sürətini tam dayanma həddinə qədər azaltmaq üçün mümkün olan tədbirləri görməlidir.

II. Nəqliyyat vasitələri:

1) yaşayış məntəqələri daxilində - saatda 60 kilometrdən çox olmayan sürətlə (səlahiyyətli orqanlar yolun müəyyən sahələrində daha yuxarı hədd müəyyən edə bilərlər, lakin bu hədd saatda 90 kilometrdən çox ola bilməz), yaşayış zonalarında və həyət ərazilərində isə saatda 20 kilometrdən çox olmayan sürətlə;



2) minik avtomobilləri və icazə verilmiş maksimum kütləsi 3,5 tondan artıq olmayan yük avtomobilləri yaşayış məntəqələrindən kənarda:

avtomagistrallarda - saatda 110 kilometrdən çox olmayan sürətlə; başqa yollarda - saatda 90 kilometrdən çox olmayan sürətlə;

3) şəhərlərarası və xüsusilə kiçik avtobuslar və motosikletlər yaşayış məntəqələrindən kənarda bütün yollarda saatda 90 kilometrdən çox olmayan sürətlə;

4) digər avtobuslar, yedəyində qoşqu aparan minik avtomobilləri, icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobilləri yaşayış məntəqələrindən kənarda:

avtomagistrallarda - saatda 90 kilometrdən çox olmayan sürətlə; başqa yollarda - saatda 70 kilometrdən çox olmayan sürətlə;

5) banında adamlar daşıyan yük avtomobilləri - saatda 50 kilometrdən çox olmayan sürətlə;

6) yedəyində mexaniki nəqliyyat vasitələri aparan nəqliyyat vasitələri - saatda 50 kilometrdən çox olmayan sürətlə;

7) təhlükəli, ağır çəkili və iriqabaritli yüklər daşıyan nəqliyyat vasitələri - daşıma şərtləri razılaşdırılarkən müəyyən edilmiş həddən çox olmayan sürətlə hərəkət etməlidirlər.

III. Sürücü sürətdən və hərəkət şəraitindən asılı olaraq, elə ara məsafəsi seçməlidir ki, qabaqda gedən nəqliyyat vasitəsi sürəti kəskin azaltdıqda və ya gözlənilmədən dayandıqda, onunla toqquşmanın qarşısını almaq mümkün olsun.

IV. Yaşayış məntəqələrindən kənarda ötməni asanlaşdırmaq məqsədilə, asta gedən, ağır yüklü və ya uzun nəqliyyat vasitələrinin sürücüləri özlərindən qabaqda gedən nəqliyyat vasitəsi ilə kifayət qədər ara məsafəsi saxlamalıdırlar ki, onları ötən nəqliyyat vasitələri ötməni tam təhlükəsiz şəraitdə başa çatdırsınlar. Əgər sürücü ötmə əməliyyatına başlamışdırsa və ötürsə, bu tələbə əməl olunmur.

V. Üstün hərəkət rejimli nəqliyyat vasitələri zərurətdən irəli gələn sürətlə hərəkət edə bilərlər. Göstərilən nəqliyyat vasitələrinin sürücüləri yol-nəqliyyat hadisələrinin qarşısını almaq üçün hər cür tədbir görməlidirlər.

VI. Sürücülərə:

1) nəqliyyat vasitəsini onun texniki xarakteristikası üzrə müəyyən edilmiş maksimum sürətdən artıq sürmək;



2) lüzumsuz olaraq həddindən az sürətlə hərəkət etməklə başqa nəqliyyat vasitələri üçün maneə yaratmaq;



3) yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün lazım olan hallar istisna edilməklə, nəqliyyat vasitəsini sərt tormozlamaq qadağandır.

### Nəqliyyat vasitələri üçün hərəkət sürəti və ara məsafəsinə aid tələblər

Yuxarıda qeyd etdiyimiz kimi, qanunda bütün növ nəqliyyat vasitələri üçün hərəkət sürəti müəyyən edilmiş, lakin ara məsafəsi ilə bağlı konkret bir tələb yoxdur. 50-ci maddənin tələblərinə əsasən, sürücülər ara məsafəsini şəraitə uyğun olaraq özləri təyin etməlidirlər. Yəni hərəkətdə olan avtomobillər arasında məsafə avtomobilin növündən, texniki vəziyyətindən, sürətindən, yolun vəziyyətindən, hava şəraitindən asılı olaraq müəyyən edilməlidir. Amma avtomobillər arasında ara məsafəsinin düzgün seçilməsi ilə bağlı sürücülərə kömək ola biləcək bir neçə üsul mövcuddur.

### Birinci üsul: "2 saniyə" qaydası

Beynəlxalq təcrübəyə əsasən, sürücülər minimum 2 saniyəyə qət edəcəkləri məsafə qədər ara məsafəsi saxlamalıdırlar. Məsələn, avtomobil 60 km/saat sürətlə hərəkət edirsə, onun 1 saniyədə getdiyi yol 17 metr təşkil edir. Ona görə də bu sürət həddində avtomobil qarşısındakı maşınla orta hesabla 34 metr ara məsafəsi saxlamalıdır. 90 km/saat (saniyədə 25 metr) sürətlə gedərkən ara məsafəsi 50 metr, 120 km/saat (saniyədə 33,3 metr) sürətlə isə 67 metr ara məsafəsi olmalıdır. Respublikamızda mövcud olan yollarda hərəkət sürətinin maksimum həddi 120 km/saat müəyyən edilmişdir.

### İkinci üsul: Sürət həddinin yarısı

Avtomobillə yolda hərəkət zamanı düzgün ara məsafəsinin saxlanılması üçün digər üsul "Sürət həddinin yarısı" üsuludur. Belə ki, sürücü minimum sürət göstəricisinin yarısı qədər ara məsafəsi saxladığı zaman avtomobili arxayınlıqla idarə edə bilər. Məsələn, ideal yolda 90 km/saat sürətlə hərəkət edən avtomobilin sürücüsü 45 metr ara məsafəsi gözləməlidir. Bu onu baş verə biləcək qəza riskindən qorumuş olur. Həmçinin, sürücü qarşıdakı avtomobillə yanaşı, onun qəza riskini də nəzərə almalıdır. Belə ki, qarşıdakı avtomobil qəzaya uğradıqdan sonra həmin maneə onun avtomobilinə də çırpıla bilər.

### Üçüncü üsul: Tıxaclarda ara məsafəsi

Şəhər yollarında, xüsusilə də tıxaclarda da ara məsafəsi gözlənilməlidir. Adətən sürücülər tıxaclarda 1-2 metr ara məsafəsi saxlayırlar. İlk baxışdan təhlükəli görünməsə də, qarşıda kiçik toqquşma tıxaclarda xeyli avtomobilin iştirakı ilə zəncirvari qəzalara səbəb olur. Ona görə, hər bir halda, təhlükəsiz hərəkət üçün düzgün ara məsafəsi saxlanılmalıdır. Qeyd etmək lazımdır ki, şəhər içində ara məsafəsi minimum elə saxlanılmalıdır ki, sürücü qarşıdakı avtomobilin altındakı asfalt örtüyünü görə bilsin.

### Dördüncü üsul: "Tormoz yolu"

Bu üsulda sürət həddinə görə də ara məsafəsini düzgün təyin etmək olar. Respublikamızın yollarında əsasən 3 sürət həddinin gözlənilməsi müəyyən edilmişdir. 60 km/saat, 90 km/saat və 120 km/saat sürət seçərkən sürücülər tormozlama yolunun nə qədər olduğunu bilməklə ara məsafəsini düzgün müəyyən edə bilərlər. Məsələn, quru ideal yolda sürücü 60 km/saat sürətlə avtomobili idarə edirsə, əyləci basdıqda avtomobil 46 metr məsafədən sonra dayanır. Yol yaş olduqda eyni sürətə görə tormozlama yolu 52 metrə qədər artır. Avtomobil 90 km/saat sürətlə hərəkətdə olan zaman quru və yaş yolda tormozlama məsafəsi 63-76 metr, 120 km/saat sürətlə hərəkət edərkən 113-210 metrə çatır. Bildirmək lazımdır ki, sürücülər sürət həddinə görə tormozlama yolunu bilməlidirlər ki, qarşıya qəflətən piyada çıxan zaman onu vurmasınlar, yaxud düzgün ara məsafəsi saxlayaraq baş verə biləcək qəzadan yayına bilsinlər. Qanunda göstərilmişdir ki, sürücüyə nəqliyyat vasitəsini onun texniki xarakteristikası üzrə müəyyən edilmiş maksimum sürətdən artıq sürmək qadağandır. Bu prinsip də əsas götürülməlidir.

### Beşinci üsul: Qaranlıqda görmə məsafəsi

Sonuncu göstərilən üsulda ara məsafəsindən əvvəl görmə məsafəsi və sürət düzgün seçilməlidir. Məsələn, avtomobilin yaxın işıqları 50 metr olduğu halda gecə saatlarında 60 km/saat sürət deyil, daha aşağı sürət təyin edilməlidir. Sürətin görmə məsafəsinə uyğun olaraq seçilməsi yola qəflətən maneə çıxması və ya qarşıdakı avtomobilin qəflətən dayanması zamanı sürücüyə manevr etməyə imkan verir. Sadə şəkildə desək, sürücü avtomobili dərhal saxlaya bilər və yaxud qəzadan yayınma imkanı qazanar. Sürücülərə lüzumsuz olaraq həddindən az sürətlə hərəkət etməklə başqa nəqliyyat vasitələri üçün maneə yaratmaq da qadağandır. Həmçinin, yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün lazım olan hallar istisna edilməklə, nəqliyyat vasitəsini sərt tormozlamaq qadağandır.

**Maddi-texniki təminat İdarəsində**
**Avtomobil və zirehli texnika şöbəsi**

*NÜMUNƏVİ XİDMƏT*

# "ƏSAS QAYƏMİZ HƏRBİ QULLUQÇULARIMIZIN SAĞLAMLIĞININ KEŞİYİNDƏ DURMAQDIR"

Psixonevrologiya şöbəsi peşəkar tibb personalı ilə Daxili Qoşunların hərbi qospitalının seçilən şöbələrindəndir. Şöbə rəisi tibb xidməti kapitanı Nərmin Muxtarova da intizamlı hərbi qulluqçulardandır. O, 1978-ci il iyun ayının 1-də Qax rayonunda anadan olub. 1995-ci ildə Bakı şəhəri, Binəqədi rayonundakı 30 nömrəli məktəbi bitirib. 1995-2002-ci illərdə Azərbaycan Tibb Universitetinin Müalicə işi fakültəsində nevropatoloq ixtisası üzrə ali təhsil alıb. 2003-2007-ci illərdə Binəqədi rayonundakı 25 saylı poliklinikada nevropatoloq kimi çalışıb.



2007-ci ilin iyun ayından Daxili Qoşunların sıralarındadır. İlk olaraq, 2007-2009-cu illərdə Daxili Qoşunların Ali Hərbi Məktəbinin Tibb xidmətində, 2009-cu ildən isə 12576 saylı hərbi hissədə xidmət edir. 2009-cu ildən 2011-ci ilin sonuna kimi Funksional diaqnostika şöbəsində rentgenoloq, 2011-2013-cü illərdə Qəbul şöbəsində terapevt kimi vəzifələrdə xidmət etmiş, 2014-cü ildən isə Psixonevrologiya şöbəsinin rəisidir. Xidmət etdiyi müddət ərzində müxtəlif kurslara cəlb olunan hərbi qulluqçumuz nəzəri və praktik cəhətdən biliklərini təkmilləşdirib. Belə ki, Türkiyə Respublikasında 2011-ci ildə biraylıq "EMQ", 2018-ci ilin oktyabr ayından 2019-cu ilin mart ayına kimi elektroensefolaqrafiya kurslarında iştirak edib, tibbi yenilikləri öyrənib və hazırda öz fəaliyyətində tətbiq edir.

Kapitan N.Muxtarova bildirdi ki, bu gün xəstələrə diaqnozların vaxtında və dəqiq qoyulması üçün Daxili Qoşunların hərbi qospitalında müasir avadanlıqlar mövcuddur. Eləcə də Psixonevrologiya şöbəsinə qəbul olunan xəstələrdə epileptik ocaqların olub-olmadığını da asanlıqla müəyyən etmək mümkündür.

Söhbət zamanı epilepsiya xəstəliyi haqqında məlumat verən şöbə rəisi söylədi ki, bu xəstəlik nevroloji patologiya, müəyyən sindromlar zamanı şəxsiyyətin dəyişilməsinin xüsusi tipi və psixi pozuntularla müşayiət edilən müxtəlif etiologiyalı heterogen xəstəlik qrupudur. Bu zaman baş beyin funksiyalarının, düşüncənin pozulması, anomal sensor və psixi hissiyyatlar, hərəki (motor) pozuntular, yayılmış tutmalar müşahidə olunur.

Tibb xidməti kapitanı N.Muxtarova qeyd etdi ki, epileptik tutmalar üçün zaman məhdudiyyəti yoxdur: "Epilepsiya qadın və kişilərdə bərabər sayda görülməkdə-dir. Xəstəlik istənilən yaşda ortaya çıxa bilər, lakin ən çox rast gəlinən aralıqlar gənclər və bir qədər irəli yaşlarda olan insanlardır".

Epilepsiya xəstəliyi zamanı diaqnozun qoyulması zamanı tətbiq edilən ilk və ən effektiv üsul isə elektroensefolaqrammadır.

Tibb xidməti kapitanı N.Muxtarova dərman müalicəsi ilə yanaşı, xəstələrin yuxu və qida rejiminə riayət etmələrinin də vacib olduğunu diqqətə çatdırdı. Göründüyü kimi, Psixonevrologiya şöbəsi özünün bacarıqlı həkimləri ilə hərbi qulluqçularımızın sağlamlığının keşiyində layiqincə dayanır.

**baş leytenant Xədicə Hacızadə**

# BƏŞƏRİYYƏTİN BƏLASI-NARKOMANİYA

Müasir dövrümüzdə cəmiyyəti düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır. Narkotik insanın iradəsini iflic edir. Dünya ictimaiyyətinin səylərinə baxmayaraq, hələ də narkomaniya bəlası ilə mübarizə aparmaq üçün səmərəli yollar aşkar etmək və narkomanların sayını azaltmaq mümkün olmayıb.

Narkomaniya ilə mübarizə uzunmüddətli, çoxşaxəli, külli miqdarda pul vəsaiti tələb edən bir prosesdir. Bu problemin ictimai təhlükəli olması isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və günü-gündən artır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, yəni oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.

Bu baxımdan gənc nəslin bu kimi təhlükəli məsələlərdən qorunması üçün onların daimi olaraq narkomaniya, onun insan sağlamlığına ziyanı barədə geniş şəkildə maarifləndirilməsinə ehtiyac vardır.

Daxili Qoşunların sıralarında xidmət edən hərbi qulluqçuların böyük bir hissəsini gənclər - əsgərlər təşkil edir. Qoşunların sıralarına daxil olan hər bir hərbi qulluqçu, o cümlədən, əsgərlər və çavuşların hərbi xidməti dövründə Vətən qarşısında şərəfli borcunu məsuliyyətlə yerinə yetirmələri, eləcə də bəşər övladını məhvə aparan narkomaniya haqqında kifayət qədər biliklərə yiyələnmələri üçün müvafiq tədbirlər görülür.



Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məqsədilə Daxili Qoşunlar Komandanının müavini-Şəxsi heyət üzrə İdarə rəisinin müvafiq göstərişinə əsasən, bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bununla yanaşı, hərbi qulluqçuların sağlamlığının qorunmasına xidmət edən maarifləndirmə işlərinin genişləndirilməsi üçün mütəmadi olaraq Daxili Qoşunların Tibb xidmətinin hərbi qulluqçuları tərəfindən hərbi hissələrdə tibbi-profilaktiki işlər görülür.

**Mətbuat xidməti**

## Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı polkovnik-leytenant Vüqar İbrahimova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000